# AZƏRBAYCANDA YAYILAN EFİRYAĞLI BİTKİLƏRİN TƏDQİQİ

**Gültəkin İsmayılova[1], Sevil Məmmədli[2]**

*[1]Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*[2]Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutu,*
*azzeri_wom@yahoo.com*

Azərbaycan florası zəngin bitki ehtiyatlarına malikdir və efiryağlı bitkilər bunların sırasında özünəməxsus yer tutur. Son vaxtlar efiryağlı bitkilərin tədqiqi və müxtəlif ekoloji problemlərin həllində tətbiqi geniş vüsət almışdır. Efiryağlı bitkilərin bioloji aktiv maddələrlə zəngin olması müxtəlif aspektli araşdırmaların aparılmasına səbəb olmuşdur. Aparılan tədqiqatlar göstərir ki, efiryağlı bitkilər həyat fəaliyyəti nəticəsində metabolik məhsullardan olan fitonsid təbiətli bakterisid, fungisid və protostosid maddələr ifraz edirlər. Bu maddələr bitki orqanizmində təbii yolla əmələ gələn immun sistemlərinin bərqərar olmasında əsas rol oynayır.

Fitonsid təbiətli birləşmələr mikroorqanizmlərə, o cümlədən mikromisetlərlə antaqonizm təşkil edir. Yəni fitonsid təbiətli birləşmələr sintez edən efiryağlı bitkilər fitopatoloji xəstəliklər törədən mikroorqanizmlərin, o cümlədən göbələklərin bu bitkilər üzərində məskunlasmasına və sonrakı inkişafına mane olaraq, fungisid təsir göstərir. Bitkilər bu xüsusiyyətlərini tərkibində daşıdıqları bioloji aktiv maddələrlə gerçəkləşdirir. Son dövrlərdə qlobal miqyasda bioekoloji tarazlığın pozulması müşahidə olunmaqdadır. Bu isə bütün canlılar aləminin, bitki, heyvan və insan orqanizmlərinin həyat fəaliyyətlərində çətinliklər yaradır. Yaranan əlverişsiz mühit şəraitində insanların müalicəvi-profilaktik təsirə malik təbii mənşəli məhsullara tələbatı artır. Belə qoruyucu xassələrə əsasən bitki mənşəli preparatlar malikdir. Bu nöqteyi-nəzərdən bioloji aktiv maddələrin sintezinə və antimikrob təsirə malik olan bitki növlərinin, o cümlədən efiryağlı bitkilərin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, bitkilər müxtəlif növlü aktiv maddələrə malikdir. Belə maddələrə alkoloidlər, efir yağları, qlikozidlər, aşı maddələri, qətranlar və s. misal göstərmək olar. Son illərdə bitki mənşəli preparatların alınmasına ehtiyac durmadan artır. Təbii və ya sintetik mənşəli preparatların içərisində aromatik və ya dərman bitkilərindən alınan preparatlar aşağı toksikliliyi və yüksək aktivliyi ilə seçilir. Ona görə də yabanı bitki florasında göbələk əleyhinə vasitələrin axtarılması daha məqsədəuyğun hesab olunur. Bitkilərdən alınan efir yağlarının geniş spektrli təsir sferasına malik olduqları nəzərə alınaraq, onların polifunksional qabiliyyətinin mürəkkəb quruluşlu çoxkomponentli olmaları ilə bağlı olduğu aşkarlanmışdır. Müxtəlif bitki nümunələrindən aldığımız efir yağlarının laboratoriya şəraitində antibakterial xüsusiyyətləri tədqiq olunmuşdur. Bununla yanaşı, model bitki nümunələrində stress şəraitində onların morfoloji və fizioloji göstəricilərə təsiri də öyrənilmişdir. Tədqiqatların nəticəsi istifadə etdiyimiz efir yağlarından hazırlanmış müxtəlif qatılıqlı məhlulların qoruyucu təsirə malik olduğunu deməyə əsas verir. Təcrübələrdə istifadə olunan efir yağlarının alındığı bitkilər geniş yayılma areallarına malikdir. Efiryağlı bitkilərin Azərbaycanda geniş yayıldığını nəzərə alaraq, onların işğaldan azad olunmuş bölgələrdə müəyyənləşdirilməsi, ehtiyatlarının qiymətləndirilməsi daha dərindən və hərtərəfli tədqiq edilməsi aktual hesab oluna bilər. Fikrimizcə, bu bitkilərin bazasında efir yağları istehsal edən müəssisələrin yaradılması və yeni iş yerlərinin açılması məqsədəuyğundur.